Almaniya Federativ Respublikasının
Səfirliyi
Bakı

Yenilənmişdir: iyun 2024

# Uşağın valideynlərinin yanına köçməsi - məlumat vərəqəsi

Milli viza ilə bağlı **ümumi məlumatlarla** əvvəlcə tanış olmağınızı xahiş edirik.

Sənədlərə baxılma müddəti orta hesabla 3 ay, bəzi hallarda daha artıq davam edir.

**Viza almaq üçün aşağıdakı sənədlər tələb olunur:**

| **Viza ərizəsi üçün sənədlərin siyahısı**<br>Hər bir ərizə ilə aşağıdakı sənədlər tam şəkildə təqdim edilməlidir. |
|---|
| ☐ Ən azı 2 boş vərəqi olan etibarlı xarici pasport *(xarici pasportun şəkil olan səhifəsi və əvvəlki Şengen vizalar və, möhürlər səhifələrin 1 ədəd surəti)* |
| ☐ Şəxsiyyət vəsiqəsi və ya əcnəbilərə verilən etibarlılıq müddəti qüvvədə olan Azərbaycanda ayaşamaq icazəsi*(əsli + 1 ədəd surəti)* |
| ☐ alman dilində tam şəkildə doldurulmuş və şəxsən imzalanmış milli viza üçün ərizə forması |
| ☐ 2 ədəd biometrik pasport şəkli (3,5 x 4,5 sm; 6 aydan köhnə olmamalı) |
| ☐ Viza rüsumu (bax: milli viza ilə bağlı ümumi məlumatlar) |
| ☐ Uşağın şəxsi məlumatlarını və onun ünvanını əks etdirən Almaniyada valideyn tərəfindən göndərilmiş qeyri-rəsmi dəvətnamə |
| ☐ Doğum haqqında şəhadətnamə + alman dilinə tərcüməsi *(əsli + 1ədəd surəti)* |
| ☐ *əgər varsa*: valideynlərin nikah haqqında şəhadətnaməsi + alman dilinə tərcüməsi (*əsli + 1ədəd surəti*) |
| ☐ əgər varsa: alman dili biliklərini təsdiq edən sənəd |
| **16 yaşdan yuxarı uşaqlardan mütləq şəkildə tələb edilir:** (əgər uşaq hər iki valideynlə birlikdə Almaniyaya köçürsə, bu sertifikat tələb olunmur): |
| ☐ C1 səviyyəsində olan alman dili biliklərini təsdiq edən sertifikat |
| **Valideynlərin yalnız birinin yanına köçdüyü təqdirdə əlavə olaraq tələb olunur** (*hər birinin əsli + 1 ədəd surəti, alman dilinə tərcüməsi ilə*): |
| ☐ Nikahın pozulması haqqında şəhadətnamə və müvafiq məhkəmənin tək valideynlilik/ qəyyumluq haqqında qərarı **yaxud** |
| ☐ Nikahın pozulması haqqında şəhadətnamə və digər valideyn tərəfindən verilən notariat qaydasında təsdiqlənmiş və alman dilinə tərcümə olunmuş Azərbaycandan daimi köçməyə və Almaniyada yaşamağa razılıq sənədi |
| ☐ Digər valideynin ölüm haqqında şəhadətnaməsi |

| **Viza proseduru bitdikdən sonra həmişə təqdim edilməli sənədlər:** |
|---|
| ☐ Səyahət sığortası (etibarlılıq müddəti:90 gün, minimal sığorta məbləği 30.000 avro, bütün Şengen dövlətləri üçün etibarlı, nəzərdə tutulan səfərin ilk günündən qüvvədə olmalı ) **yaxud** |
| ☐ Alman tibbi sığorta şirkətinin artıq mövcud sığorta təminatı haqqında təsdiq. Ailə sığortası yalnız Almaniyada yaşamağa başladığınız vaxtdan qüvvəyə mindiyi üçün ölkəyə daxil olduqdan sonra ilk 10 gün üçün səyahət sığortası təqdim edilməlidir. |

**Xahiş olunur nəzərə alasınız ki, Sizin Azərbaycanda verilən ailə vəziyyətinə dair sənədləriniz və məhkəmə qərarları (məs.: qəyyumluq haqqında, övladlığa götürmək haqqında məhkəmə qərarları) leqalizasiya olunmuş şəkildə təqdim edilməlidir. Leqalizasiyaya dair məlumatları Siz buradan əldə edə bilərsiniz: https://baku.diplo.de/az-az/service/-/2214626**

Sənədlərin baxılma zamanı Almaniyadakı miqrasiya idarəsinin (Ausländerbehörde) Almaniyada yaşayan valideyn tərəfindən ərizəçinin (uşağın) sosial yardım almadan **yaşam xərclərinin maliyyələşməsi**, eləcə də siğorta xərclərininin öz üzərinə götürmə imkanını və kifayət edəcək ölçüdə mənzilin olub-olmamasını yoxlayacaqdır. Bununla bağlı miqrasiya idarəsi (Ausländerbehörde) Almaniyada yaşayan valideynlə əlaqə yaradacaqdır. Buna görə də sənədləri verərkən valideynə dair məlumatların tam və doğru, dəqiq və oxunaqlı yazılmasına diqqət yetirin.